# Qurbanov Ramiz Seyfulla oğlu – 85 il!



Tanınmış alim, texnika elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Ramiz Seyfulla oğlu Qurbanovun anadan olmasının 85 ili tamam oldu.

Qurbanov Ramiz Seyfulla oğlu 1934-cü il oktyabr ayının 30-da Salyan şəhərində qulluqçu ailəsində anadan olub. 1951-ci ildə orta məktəbi gümüş medalla, 1956-cı ildə isə Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft yataqlarının istismarı ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra o, "26 Bakı Komissarı" ad. NQÇİ-də (indiki "Bibiheybətneft" NQÇİ) dövlət təyinatı ilə əmək fəaliyyətinə başlamışdır. 1956–1961-ci illərdə burada neftçıxarma əməliyyatçısı, neftçıxarma ustası, böyük mühəndis, müdir müavini vəzifələrində çalışmışdır. 1960-cı ildə aspiranturanın qiyabi şöbəsinə daxil olmuş, elə həmin ildə M. Əzizbəyov ad. Azərbaycan Neft-Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) "Nəzəri mexanika" kafedrasında assistent vəzifəsinə seçilmişdir.

O, 1963-cü ildə namizədlik dissertasiyasını müdafiə etdikdən sonra "Nəzəri mexanika" kafedrasında baş müəllim və dosent, 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edərək, professor elmi adını almış və həmin kafedranın müdiri vəzifəsinə təyin olunmuşdur.

R.S. Qurbanov mexanika sahəsində mütəxəssis olaraq neft-mədən şəraitində geniş tətbiq edilən texnoloji proseslər və avadanlıqların layihələndirilməsinin nəzəri və praktiki məsələlərinin həlli sahəsində apardığı elmi tədqiqatlarla neft-mədən mexanikası sahəsini daha da zənginləşdirmişdir. O, həmçinin 300-dən çox elmi işin, o cümlədən 3 elmi kitab və 5 dərsliyin, 34 müəlliflik şəhadətnaməsi və 11 patentin müəllifidir.

Prof. R.S. Qurbanovun rəhbərliyilə neft yataqlarının işlənməsi və istismarı, maye, qaz və plazma mexanikası, hidravlika və hidrologiya, maşınlar, aqreqatlar və proseslər, texniki sistemlərdə idarəetmə ixtisasları sahəsində 37-dən çox elmlər namizədi və elmlər doktoru hazırlanmışdır.

O, 1968–1989-cu illərdə M. Əzizbəyov ad. Azərbaycan Neft-Kimya İnstitutunun "Nəzəri mexanika" kafedrasının müdiri və tədris işləri üzrə prorektoru, 1989–1990-cı illərdə isə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) rektoru vəzifələrində işləmişdir. 1990-cı ildən 2013-cü ilə kimi Azərbaycan Dövlət Neft Akademiyasının "Nəzəri mexanika" kafedrasının müdiri olmuşdur.

2013-cü ildən "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-də baş elmi işçi vəzifəsində işləyir.

R.S.Qurbanovun 2002-ci ildən əldə etdiyi elmi nailiyyətlər Azərbaycan Milli Elmlər Akademiyasının "Fizika-riyaziyyat və texniki elmlər" bölməsi və illik hesabatına mühüm nəticələr kimi daxil edilmişdir.

Ramiz müəllimin iqtisadiyyatın müxtəlif sahələri üçün yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri vardır.

1986-cı ildə "Neft layının fizikası" dərsliyinə görə prof. R.S.Qurbanova elm və texnika sahəsində

Azərbaycan Respublikasının Dövlət mükafatı verilmişdir.

Yuxarıda qeyd olunan xidmətlərinə görə prof. R.S.Qurbanov 1986-cı ildə "Azərbaycan SSR Dövlət mükafatı laureatı", 1990-cı ildə SSRİ-nin "Fəxri Neftçi"si adlarına layiq görülüb. 1998-ci ildən Amerika Neftçilər Cəmiyyətinin üzvüdür. "SSRİ neft sənayesi əlaçısı", SSRİ Təhsil Nazirliyinin "İşindəki əla nailiyyətlərə görə" dövlət nişanları ilə təltif olunmuşdur.

R.S. Qurbanovun rəhbərliyilə məsaməli mühitdə neftin axına qarşı neftvermə əmsalını azaldan əlavə müqavimət qüvvəsi kəşf edilmişdir.

Prof. R.S.Qurbanov keçmiş SSRİ Təhsil Nazirliyinin "Nəzəri mexanika" üzrə elmi–metodiki şurasının rəyasət heyətinin üzvü, Azərbaycan SSR Təhsil Nazirliyinin "Nəzəri mexanika" bölməsinin üzvü, dissertasiya müdafiələri üzrə müxtəlif illərdə fəaliyyət göstərən şuraların üzvü, Dissertasiya Şurasının nəzdində fəaliyyət göstərən "Maye, qaz və plazma mexanikası" seminarının sədri, AMEA-nın fizika-riyaziyyat və texnika bölməsinin büro üzvüdür. 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olub.

R.S.Qurbanovun adı 1993-cü ildə Moskvada nəşr olunan "Kto yest kto v neftyanoy i qazovoy promışlennosti" və Kembricdə "Beynəlxalq bioqrafik mərkəz"in nəşr etdiyi "Beynəlxalq bioqrafik lüğət"in 23-cü nəşrinə daxil edilib.

**Hörmətli Ramiz müəllim!**

Sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, cansağlığı və elmi-pedaqoji fəaliyyətinizdə uğurlar arzulayırıq.

**"Neftin, qazın geotexnoloji problemləri və Kimya"**
**ETİ-nin kollektivi, "Azərbaycan neft təsərrüfatı"**
**jurnalının redaksiya heyəti və kollektivi**